AZƏRBAYCAN RESPUBLİKASI

TƏHSİL NAZİRLİYİ

**Bakı İdarəetmə və Texnologiya Kolleci**

# Azərbaycan dili və nitq mədəniyyəti fənninin iş planı

# (SİLLABUS)

**Müəllim:** **Camalov Mərdan**

**Qrup: S.174R**

**Bakı – 2020**

# “Azərbaycan dili və nitq mədəniyyəti”

fənninin

# PROQRAMI

Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı İdarəetmə və Texnologiya  Kollecinin “Azərbaycan dili və ədəbiyyat” kafedrasının 11 sentyabr 2020-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
( Protokol № 1 )

## 1.Müəllim haqqında məlumat

**Soyadı:** Camalov

**Adı:** Mərdan

**Atasının adı:** Adışirin

**Təhsili:** Tam ali

**Vəzifəsi:** müəllim

**Dərəcəsi:**

**Tel(mob):** 070 542 20 32

**Gün ərzində kollecdə olduğu vaxt:** $08^{30}$ – $16^{00}$

**Xarici dil:** rus dili

## 2.Fənn haqqında məlumat

**Fənnin kodu**: HF – BO3

**Fənnin növü:** Humanitar

**Fənnin tədris ili:** 2020/2021 (I semestr)

**Auditoriya:** №

**Fənnin krediti:** 4

**Fənnin tədris yükü (saat):** 60

**Fənnin prerekviziti:** **Fənn proqramı,mövzu-təqvim planı**

**Fənnin tədris forması:** distant-məşğələ

## 3. Fənnin əsas məqsədi.

“Hər bir Azərbaycan vətəndaşı öz ana dilini -- Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir. Bu dildə səlis danışmalı və bu dili sevməlidir.” H.Əliyev

Ümumi mədəniyyətimizin ən vacib və zəruri tərkib hissələrindən biri olan “Azərbaycan dili və nitq mədəniyyəti” fənni hal-hazırda Ali və orta ixtisas təhsili müəssisələrində tədris olunur.

Bu fənnin tədrisinin əsas məqsədi tələbələrə öz fikirlərini həm şifahi, həm də yazılı formada düzgün, səlis, yığcam, ifadəli, dəqiq, aydın, məntiqi, canlı, sadə, anlaşıqlı bir dildə ifadə edə bilmək bacarıq və vərdişləri aşılamaqdır.

“Azərbaycan dili və nitq mədəniyyəti” fənninin tədrisi rus dilində təhsil alan tələbələr üçün olduqca vacib və zəruridir. Belə ki, həmin fənnin elmi əsaslar üzərində mənimsədilməsinin əsas məqsədi dilimizin qayda-qanunlarını mükəmməl öyrətmək, tələbələri cəmiyyətdə layiqli yer tutmağa hazırlamaq, onlara ədəbi dilimizin şifahi və yazılı nitq vərdişlərini aşılamaqdır. Nitq mədəniyyətinin əsas vəzifəsi rus şöbəsində təhsil alan tələbələri onun elmi əsasları ilə tanış etmək, onlara ədəbi dil normalarını öyrətmək, nitqini inkişaf etdirməkdir.

## 4. Fənnin tədrisi nəticəsində əldə olunan kompetensiyalar.

“Nitq mədəniyyəti” anlayışı öz həcminə, əhatə dairəsinə görə olduqca genişdir. Bura mədəni nitqi şərtləndirən əsas amillər, nitq mədəniyyəti və ədəbi dil normaları, nitq mədəniyyəti və danışıq etikası, mədəni nitqin ictimai və sosial-iqtisadi inkişafdakı rolu, nitq mədəniyyətinə yiyələnməyin yolları, üsulları və digər məsələlər daxildir.

Nitq mədəniyyəti Azərbaycan dilinin qayda-qanunlarını, incəliklərini, özünəməxsus xüsusiyyətlərini öyrənmək üçün zəmin yaradır, mədəni daranmağı və nitq vərdişlərini öyrədir. Ona görə də hər bir şəxs nitqini qurarkən sözlərin düzgün tələffüzünü, vurğusunu, intonasiyanin işlənmə qaydalarını bilməlidir.

Bu fənn tələbələrin istər yazılı, istərsə də şifahi nitqinin inkişafı üçün yollar, perspektivlər açir. Nitq mədəniyyəti ancaq düzgün danışmaq bacarığı deyil, həm də düzgün yazmaq vərdişləri aşılayır, məlumatları rəvan bir dildə çatdırmaq bacarığına yiyələnməyə imkan verir.

Nitq mədəniyyəti -- danışıq və yazı zamanı orfoqrafik və orfoepik qaydalara, qrammatik qayda-qanunlara, üslub normalarına əməl etmək, zəngin söz ehtiyatına malik olmaq, nitqin etik normalarını gözləməkdir. Nitq mədəniyyətinə yaxşı yiyələnmək üçün dilin fonetik, leksik və qrammatik qayda-qanunlarını bilmək hər bir tələbənin borcudur.

**5. Fənnin xarakteristikası**

**Fənnin öyrənilməsinin təqvim planı**

| | | | |
|---|---|---|---|
| 1 | Dil nədir? Dilin mahiyyəti | 2 | Dərs-məşğələ |
| 2 | Əlifba.Yazı | 2 | Dərs-məşğələ |
| 3 | Dilimizin tarixini əks etdirən “Kitabi-Dədə Qorqud” dastanında milli-mənəvi dəyərlərimiz | 2 | Dərs-məşğələ |
| 4 | Fonetika.Danışıq səsləri. Azərbaycan dilinin spesifik səsləindəndən istifadə edərək düzgün tələffüz qaydalarını mənimsətmək | 2 | Dərs-məşğələ |
| 5 | Ahəng qanunu. Sözün sətirdən-sətrə keçirilməsi | 2 | Dərs-məşğələ |
| 6 | Azərbaycan dilində orfoqrafiya və orfoepiya qaydaları haqqında. Mürəkkəb sözlərin yazılışı.Birinci hərfi böyük yazılan sözlər | 2 | Dərs-məşğələ |
| 7 | Düzgün yazı vərdişləri üzərində iş | 2 | Dərs-məşğələ |
| 8 | Leksikologiya | 2 | Dərs-məşğələ |
| 9 | Sözün məna növləri | 2 | Dərs-məşğələ |
| 10 | Omonim,sinonim,antonimlər.Nitqimizin inkişafında sinonimin rolu | 2 | Dərs-məşğələ |
| 11 | Ümumişlək və ümumişlək olmayan sözlər | | Dərs-məşğələ |
| 12 | Frazeologiya | 2 | Dərs-məşğələ |
| 13 | Nizami Gəncəvinin poemalarında milli-əxlaqi dəyərlər | 2 | Dərs-məşğələ |
| 14 | Morfologiya.Əsas nitq hissələri. | 2 | Dərs-məşğələ |
| 15 | Köməkçi nitq hissələri. Bağlayıcı.Cümlənin qurulmasında bağlayıcıların rolu | 2 | Dərs-məşğələ |
| 16 | Mətn üzərində iş | 2 | Dərs-məşğələ |
| 17 | Sintaksis .Söz birləşmələri | 2 | Dərs-məşğələ |
| 18 | Cümlə haqqında məlumat | 2 | Dərs-məşğələ |
| 19 | Şifahi və yazılı nitqin formalaşmasında cümlə üzvlərinin rolu | 2 | Dərs-məşğələ |
| 20 | Nitq mədəniyyəti anlayışı | 2 | Dərs-məşğələ |
| 21 | Ritorika.Azərbaycan ritorlarının dilimizin inkişafında rolu | 2 | Dərs-məşğələ |
| 22 | Nitqin formaları: şifahi və yazılı | 2 | Dərs-məşğələ |
| 23 | Rabitəli nitqin inkişafı.Yazılı nitq vərdişlərinin formalaşdırılması | 2 | Dərs-məşğələ |
| 24 | Rabitəli nitqin inkişafı.Şifahi nitq vərdişlərinin formalaşdırılması | 2 | Dərs-məşğələ |
| 25 | Nitq etiketləri | 2 | Dərs-məşğələ |

| | | | |
|---|---|---|---|
| 26 | Ədəbi dilin normaları | 2 | Dərs-məşğələ |
| 27 | Ədəbi dilin üslubları | 2 | Dərs-məşğələ |
| 28 | Üslubların özünəməxsus xüsusiyyətlərini müəyyən etmək üçün mətnlər üzərində iş aparmaq | 2 | Dərs-məşğələ |
| 29 | Əməli yazı növləri | 2 | Dərs-məşğələ |
| 30 | Durğu işarələri | 2 | Dərs-məşğələ |

**6. Fənn üzrə sərbəst işlərin mövzuları**

Fənn üzrə semestr ərzində hər tələbəyə 1(bir) sərbəst iş tapşırığı verilir. Hər tapşırığın yerinə yetirilməsi 0-10 balla qiymətləndirilir.

| № | Mövzular |
|---|---|
| 1 | Dil nədir? |
| 2 | Danışıq  səsləri |
| 3 | Frazeologiya |
| 4 | Bağlayıcı.Cümlənin qurulmasında bağlayıcıların rolu |
| 5 | Nizami Gəncəvinin poemalarında milli-əxlaqi dəyərlər |
| 6 | Sintaksis .Söz birləşmələri |
| 7 | Azərbaycan ritorlarının dilimizin inkişafında rolu |
| 8 | Nitq etiketləri |
| 9 | Epistolyar üslub. Məktublaşma |
| 10 | Əməli yazı növləri. |
| 11 | Yazılı və şifahi nitq |

Sərbəst iş yazılı formada, word faylı formasında, həcmi sərbəstdir, (şrift 12) olmalıdır.
Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məcmusu olduğuna görə **plagiat** yol verilməzdir.

**7. Tələbənin nailiyyətlərinin cari və aralıq qiymətləndirilməsi**

Fənn üzrə krediti toplamaq üçün lazımi balın toplanması aşağıdakı kimi olacaq:

- 50 bal – imtahana qədərki bal;
- 10 bal dərslərə davamiyyətə görə (fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır);

- 10 bal tələbənin sərbəst işinə görə;
- 30 bal laboratoriya dərslərinin nəticələrinə görə (fənn üzrə kurs işi və məşğələ dərsi nəzərdə tutulmadığı halda).

**8. Təhsilalma prosesinə nəzarət və tələbənin biliyinin yekun qiymətləndirilməsi**

Tələbənin biliyinin yekun qiymətləndirilməsi imtahan zamanı 50 bal və imtahana qədər 50 bal toplanan ballar cəmi 100 bala bərabərdir. Yekun bal aşağıdakı kimi qiymətləndirilir:

A – "Əla" - 91 – 100
B – "Çox yaxşı" - 81 – 90
C – "Yaxşı" - 71 – 80
D – "Kafi" - 61 – 70
E – "Qənaətbəxş" - 51 – 60
F – "Qeyri-kafi" - 51 baldan aşağı

Yekun qiymətləndirmə 51 bal və ondan yuxarı bal toplayan tələbə fənn üzrə müəyyən olunmuş krediti qazanır və müvəffəqiyyət qazanan tələbə, 51 baldan aşağı bal toplayan tələbə isə həmin fəndən krediti qazanmır və akademik borcu olan tələbə adlanır.

**9. İstifadə olunan ədəbiyyat :**

. 1. Akif Bayramov, Ziyəddin Məhərrəmov, Mustafa İsgəndərzadə. "Azərbaycan dili və nitq mədəniyyəti"
2. Adil Babayev. "Azərbaycan dili və nitq mədəniyyəti"
3. Süleyman Hüseynov. "Nitq mədəniyyəti"
4. Afat Qurbanov. "Ümumi dilçilik"

- Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri elektron formada kollecin saytında yerləşdirilib.
-

**10.Tələbənin nizam-intizamına qoyulan tələblər**

- Pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- Təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq ictimai asayiş və daxili intizam, davranış qaydalarının tələblərinə riayət etmək;
- Auditoriya daxili təlim məşğələlərində iştirak etmək, müvafiq tədris planlarında vəkursların işçi proqramlarında nəzərdə tutulmuş bütün növ tapşırıqları müəyyən edilmiş dövrlərdə yerinə yetirmək;
- Kollecin otaqlarına, tədris-laboratoriya avadanlığına, cihazlara, dərs vəsaitlərinə, kitablarına və digər əmlakına qayğı və səliqə ilə yanaşmaq, onların korlanmasına, zədələnməsinə və itməsinə yol verməmək, otaqlarında onların təmizliyə və səliqəyə riayət etmək.